## *ZOOLOGİYANIN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ЗООЛОГИИ*
## *METHODS OF TEACHING ZOOLOGY*

*UOT 372. 857*

***Elnurə Fazil qızı Səfərova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*biologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-4151-1750*

***Günel Əlimövsüm qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/0009-0001-6916-7955*
https://doi.org/10.69682/azrt.2024.91(1).155-157

# ZOOLOGİYANIN TƏDRİSİNDƏ ESTETİK TƏRBİYƏ MƏSƏLƏLƏRİNİN ÖYRƏDİLMƏSİ METODİKASI

***Эльнура Фазиль гызы Сафарова***
*доцент Азербайджанского Государственного Педагогического Университета*
*доктор философии по биологии*

***Гюнель Алимовсум гызы Мамедова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# МЕТОДИКА ИЗУЧЕНИЯ ВОПРОСОВ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ ПРИ ПРЕПОДАВАНИИ ЗООЛОГИИ

***Elnura Fazil Safarova***
*associate professor of Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in biology*

***Gunel Alimovsum Mammadova***
*teacher at Azerbaijan State Pedagogical University*

# METHODOLOGY OF TEACHING AESTHETIC EDUCATION ISSUES IN THE TEACHING OF ZOOLOGY

**Xülasə.** Təbiət estetik tərbiyənin mənbəyidir. Onunla bağlı keçirilən tərbiyəvi işlər böyük imkanlara malikdir. Təbiət böyüməkdə olan nəslin gözəl tərbiyəçisi olmaqla onun estetik hisslərinin inkişafına dərin təsir göstərir. Ekskursiyalar, dərsdənkənar, sinifdənkənar məşğələlər ənənəvi olaraq estetik tərbiyəvi işlər üçün geniş imkanlar yaradır. Müasir tələblərə uyğun tədris olunan dərslər estetik mədəniyyətin formalaşmasına geniş imkan yaradır. Dərsin digər mərhələlərində də fəal təlimin metod və texnikalarından istifadə zamanı şagirdlərdə estetik zövq aşılamaq olar. Məsələn, onlara verilən paylama materialları, əyani vəsaitlər müəyyən zövqlə, şagirdin yaş səviyyəsinə uyğun (aşağı siniflərdə daha rəngarəng) tərtib oluna bilər.
***Açar sözlər:*** *estetik, tərbiyə, zoologiya, metodika, tədris*

**Резюме.** Природа – источник эстетического воспитания. Просветительские работы, связанные с этим, имеют большие возможности. Будучи прекрасным воспитателем подрастающего поколения, природа оказывает глубокое влияние на развитие его эстетических чувств. Экскурсии, внеклассные мероприятия традиционно создают широкие возможности для эстетико-воспитательной работы. Уроки, преподаваемые в соответствии с современными требованиями, создают широкие возможности для формирования эстетической культуры. На других этапах урока у учащихся можно привить

эстетический вкус, используя методы и приемы активного обучения. Например, выдаваемые им раздаточные материалы и наглядные пособия могут быть оформлены с определенным вкусом, в соответствии с возрастным уровнем ученика (более красочно в младших классах).

***Ключевые слова:*** *эстетическое, воспитание, зоология, методика, преподавание*

**Summary.** Educational works related to it have great possibilities. Being a wonderful educator of the growing generation, nature has a profound effect on the development of its aesthetic feelings. Excursions, extracurricular, extracurricular activities traditionally create ample opportunities for aesthetic educational work. Lessons taught in accordance with modern requirements create a wide opportunity for the formation of aesthetic culture. At other stages of the lesson, students can be instilled with aesthetic taste while using the methods and techniques of active learning. For example, handouts and visual aids given to them can be designed with a certain taste, according to the student's age level (more colorful in lower grades).

***Key words:*** *aesthetics, education, zoology, methodology, teaching*

Estetik tərbiyə ahəngdar inkişaf etmiş şəxsiyyət tərbiyəsinin tərkib hissələrindən biridir. "Estetika" yunanca "estezis" sözündən olub, hiss etmək, qavramaq deməkdir. Estetik tərbiyə dedikdə, incəsənət və həyatdakı gözəlliklərin qavranmasına, estetik zövq və qabiliyyətlərin inkişafına yönələn təsirlərin məcmusu nəzərdə tutulur. Estetik tərbiyə şəxsiyyət tərbiyəsində böyük rol oynayır. O, tərbiyənin digər tərkib hissələri ilə sıx bağlıdır. Estetik tərbiyə əqli tərbiyəyə kömək göstərir: o, insana bilik verir, həyatı dərk etməyə yardım edir. [1]

Estetik tərbiyə əmək tərbiyəsi ilə də sıx bağlıdır. Əmək, yaradıcı fəaliyyət ən gözəl zövq mənbəyidir. İnsanın xoşbəxtliyi yaradıcı əməklə, əmək sevinci ilə bağlıdır. Estetik tərbiyə fiziki tərbiyəyə, sağlamlığa müsbət təsir edir. "Sağlam ruh sağlam bədəndə olar" demişlər. Musiqi çox qədimdən müalicə vasitəsi kimi tətbiq olunmuşdur (baş ağrısı, diş ağrısı, ürək-damar, əsəb xəstəliklərinin müalicəsində musiqi terapiyasından uğurla istifadə olunur). Estetik tərbiyə nəzəri-metodoloji əsas kimi estetika elminə istinad edir. Estetika gözəllik haqqında elmdir. Gözəllik mütənasiblik, forma və məzmun vəhdəti, ahəngdarlıqdır. Gözəlliyin başlıca mənbələrini təbiət, cəmiyyət, ədəbiyyat, incəsənət və insan gözəlliyi təşkil edir. İnsanın gözəlliyi zahiri və daxili gözəlliyin vəhdətidir. [5]

Varlığın insan tərəfindən estetik qavranması və düzgün əks etdirilməsi öz təbiəti etibarilə mürəkkəb prosesdir. Varlığın və incəsənətin bədii-estetik qavranması – estetik tərbiyənin ilkin mərhələsini təşkil edir. Qavramanın dolğunluğu, tamlığı, parlaqlığı sayəsində insanda müəyyən estetik hisslər, varlığa estetik münasibət formalaşır. Estetik hiss gözəlliyi duymaq, ondan həzz almaq bacarığıdır. Estetik qavramanın doğurduğu hisslər çox müxtəlif çalarlara malikdir: sevinc-kədər, məhəbbət-nifrət, həzz-ikrah, həyəcan, qorxu, təşviş, gülüş və s. Estetik hisslər insanda estetik tələbatların əsasında durur: insanın gözəllikdən keçirdiyi dərin emosional həyəcanlar, hisslər onda bədii-estetik dəyərlərlə ünsiyyətə ehtiyac doğurur. Varlığın estetik qavranması, ona emosional münasibətin və estetik tələbatların yaranması prosesində tədricən uşaqların estetik şüuru formalaşır. Estetik hisslər və mənəvi tələbatlarla birlikdə estetik şüur insanın varlığa estetik münasibətinin əsasını təşkil edir. [3]

Estetik şüur və hisslərin təsiri ilə estetik zövq formalaşır. Estetik zövq estetik ideal baxımından gözəlliyi qiymətləndirmək bacarığıdır. Estetik zövq əsasında insanda estetik mühakimə – varlığa, incəsənətə əsaslı, ümumiləşmiş ideya-emosional qiymətləndirmə bacarığı formalaşır.

1. Məktəbdə estetik tərbiyə bir neçə vəzifəni həyata keçirir.
2. Gənc nəsildə estetik baxış və təsəvvürlər, estetik şüur aşılamaq və inkişaf etdirmək.
3. Estetik hisslər və bu əsasda varlığa və incəsənətə estetik tələbat formalaşdırmaq.
4. Estetik zövq və mühakimə bacarığı formalaşdırmaq.

Böyüyən nəsildə bədii yaradıcılıq bacarıq və vərdişləri, bədii-estetik qabiliyyətləri inkişaf etdirmək. Şagirdlər incəsənətin bu və ya digər sahəsində müəyyən bacarıqlara yiyələnməli (musiqi alətində çalmaq, rəqs etmək, şəkil çəkmək, şer və ya hekayə yazmaq, bədii oxu və bədii tikişlə məşğul olmaq və s.), həyata, cəmiyyətə gözəllik ünsürləri bəxş etməlidirlər. [4] Bu, həm də insanın özünütəsdiqinin mühüm şərtini təşkil edir. Estetik tərbiyənin səmərəsi üçün bir sıra prinsipləri rəhbər tutmaq lazımdır. Həmin prinsiplərə aşağıdakılar daxildir:

1. Estetik tərbiyə insanın ideya-mənəvi tərbiyəsi, dünya görüşünün formalaşması prosesi ilə sıx əlaqəli şəkildə aparılmalıdır.

2. Estetik tərbiyədə müəyyən sistem və ardıcıllıq gözlənməlidir.

3. Estetik tərbiyə hərtərəfli aparılmalıdır.

4. Estetik tərbiyədə uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır.

5. Estetik tərbiyədə məktəb, ailə, məktəbdənkənar müəssisələr, mədəniyyət ocaqları, qoruqlar, heyvan və bitkilərin qorunduğu parklar və s. bir-birilə sıx əməkdaşlıq etməli, vahid xətt üzrə əlbir işləməlidirlər.

Məktəbdə estetik tərbiyə geniş məzmunda aparılır. Təlim prosesi estetik tərbiyənin çox mühüm vasitəsi olub, şagirdlərin estetik zövq və bacarıqlarının formalaşmasında böyük rol oynayır. Bu sahədə xüsusilə musiqi, təsviri incəsənət, əmək, ana dili və ədəbiyyat fənlərinin biologiya ilə inteqrativ tədrisi imkanları genişdir. [2]

Estetik tərbiyənin şagirdlərdə formalaşdırılması məqsədi ilə digər fənlərin də imkanlarından istifadə edilməlidir. Tədris etdiyi fəndən asılı olmayaraq müəllim öz gözəl nitqi, davranışı, münasibəti, geyimi ilə şagirdlərin zövqünü tərbiyə edir: "Hər bir fənn müəllimi estetik tərbiyə müəllimi olmalıdır" (M.Cəfər). Dərsdə istifadə olunan əyani vəsaitlər, sinfin estetik tərtibi, dərsdə yaradılan mənəvi-emosional mühit də estetik zövqün mühüm mənbəyini təşkil edir. Dərslərdə aparılan estetik tərbiyə sinifdənxaric və məktəbdənkənar işlərdə daha da dərinləşdirilir və genişləndirilir. Bu işlər şagirdlərin maraqlarının və fərdi yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək göstərir. Estetik tərbiyə üzrə sinifdənxaric işlərin məzmunu, forması müxtəlif və rəngarəngdir. Bunları üç qrupa ayırmaq olar: dərnək işləri, kütləvi işlər və fərdi işlər. Bədii yaradıcılıq və incəsənət dərnəkləri estetik tərbiyə üzrə sinifdənxaric işlərin geniş yayılmış formalarındandır. [6]

**Problemin aktuallığı.** Estetik tərbiyənin mahiyyəti xeyirxahlığı gözəllik kimi təsdiq etməkdir. Gözəllik hissini inkişaf etdirmədən yüksək əmək mədəniyyətinə nail olmaq mümkün deyil. Təbiətdə olan hər şey estetik tərbiyənin mənbəyidir. Estetik tərbiyə ilə bağlı keçirilən tərbiyəvi tədbirlər böyük imkanlara malikdir. Təbiət öz növbəsində böyüməkdə olan nəslin gözəl tərbiyəçisi olmaqla onların estetik hisslərinin inkişafına çox böyük təsir göstərir.

**Problemin elmi yeniliyi.** Biologiya dərsliklərində verilmiş bütün mövzularda şagirdlərdə estetik zövq aşılamaq üçün imkanlar vardır. Məsələn, "Çılpaqtoxumlular", "Örtülütoxumlular", "Suda-quruda yaşayanlar", "Sürünənlər", "Quşlar", "Məməlilər", "Biomüxtəliflik" və s. kimi mövzularda müəllim elmi biliklər verməklə yanaşı, həm də canlıların estetik cəhətdən gözəlliyini müəyyən yollarla şagirdlərə göstərə bilər. Bu zaman nümayiş etdirilən tablolarda canlılara aid hansı gözəlliyin olduğu fərdi olaraq şagirdlərdən soruşulub, siniflə müzakirələr aparıla bilər. Biologiya müəllimləri dərsi daha fəal təşkil etmək üçün yeni dərs modellərindən istifadə edə bilərlər.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məktəblərdə Biologiya kabinetlərinin düzgün şəkildə tərtibatı, orada yerləşdirilən çiçəklər, divardakı tablolar və s. şagirdlərin estetik tərbiyəsində böyük rol oynayır. Buna görə də biologiya kabinetlərinin tərtibatında biologiya müəllimləri daha diqqətli olmalıdırlar. Ekskursiyalar, sinifdənkənar və dərsdənkənar məşğələlər estetik tərbiyəvi işlər üçün geniş imkan yaradır. Məqalədən ümumi təhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Hacıyeva, G.N. Biologiyanın tədrisi metodikasından laborator və seminar məşğələlər. Dərs vəsaiti / G.N. Hacıyeva, E.F. Səfərova, S.M. Axundova. – Bakı: Müəllim. – 2020. – 205 s.
2. Hacıyeva, G.N. Biologiyanın tədrisi metodikası: Ali məktəblər üçün dərs vəsaiti / G.N. Hacıyeva. – Bakı, – 2022.
3. Hacıyeva H.M., Səfərova E.F., Məmmədova X.A., Əliyeva S.V. Ümumtəhsil məktəblərində zoologiyanın tədrisində ümumiləşdirci sxemlərdən istifadənin mənimsəməyə təsiri. – Bakı, 2011. – s. 3-5.
4. Hüseynov Ə.M., Hacıyeva H. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində kurikulumun tətbiqi. – Bakı, – 2015. – 148 s.
5. Biologiya: dərslik.7-ci sinif. – Bakı, 2018.
6. Biologiya: 7-ci sinif (metodik vəsait). – Bakı, 2018.


**E-mail:** seferovaelnure@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **G.N. Hacıyeva,**
*biol.elm.dok., prof.* **R.L. Sultanov**
**Redaksiyaya daxil olub:** 07.01.2024.